Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Firudin bəy Köçərli adına
Respublika Uşaq Kitabxanası

# Xoruz





Biri varmış, biri yoxmuş, bir qarı nənə varmış. Bu qarı nənənin bir xoruzu varmış. Bir gün xoruz həyətdə eşələndiyi vaxt ayağına bir manqur[1] dəydi. O, manquru görüb:



– Quqquluqu, bir dənə manqur tapmışam, – deyə qışqırmağa başladı.

Xoruzun səsi padşahın qulağına çatdı. Tez öz nökərlərinə əmr etdi ki, manquru xoruzun əlindən alsınlar.

Nökərlər xoruzu araya aldılar. Axırda onu tutub manquru əlindən aldılar.

[1] Manqur – xırda pul



Bunu görən xoruz qışqırmağa başladı:

– Quqquluqu, padşah da mənə möhtacmış.

Padşah əmr etdi:

– Aparın manqurunu qaytarın, ağzını yumsun.

Manquru geri almış xoruz bir uca yerə çıxıb lovğa-lovğa qışqırdı:

– Quqquluqu, padşah məndən qorxarmış.

Hirsdən gözləri qızarmış padşah:

– Tutun onu, başını kəsin,-deyə əmr etdi.

Nökərlər xoruzu çox çətinliklə tutub, kəsmək üçün cəllada verdilər.

Cəllad xoruzun başını kəsdi.

Xoruzun başı bədənindən ayrılanda:



– Quqquluqu, nə iti bıçaqmış, – deyə səsləndi.

Xoruzu bişirmək üçün aşpaza verdilər. Aşpaz xoruzu pörtmək üçün qaynar su ilə dolu bir qazana saldı.



– Quqquluqu, nə isti hamammış, – deyə xoruz səsləndi.

Onun tüklərini yolub bişirdilər. Plovun üstə qoyub padşaha apardılar.



– Quqquluqu, nə ağca təpəymiş, – deyə xoruz səsləndi.

Plov buludunu padşahın qabağına qoydular. O, acgözlüklə xoruzu yeməyə başladı. Birinci tikəni udan kimi padşahın boğazından xoruzun səsi eşidildi:

– Quqquluqu, nə darca küçəymiş.



Padşah xoruzun bu hərəkətindən heyrətlənib ikinci tikəni udmuşdu ki, qarnından xoruzun səsi yenə eşidildi.

Padşah əlini süfrədən çəkib özündən çıxdı. Onu sancı tutmuşdu. Ağrıdan dura bilmirdi.

Birdən xoruz zalım padşahın qarnını yırtıb bayıra çıxdı və ucadan:

– Quqquluqu, padşahın qarnı yırtıldı, mənim canım qurtuldu,- deyə qışqıra-qışqıra padşahın sarayından çıxıb qaçdı, yenə də qarı nənənin yanına gəldi.

Bərpanəşr

Buraxılışa məsul: Aslan Cəfərov
Şəhla Qəmbərova

Redaktorlar: Zahirə Dadaşova
Səkinə Səmədova

Dizayn: Vəfa Ağamirzəyeva
Ellada Səfərəliyeva

Çapa imzalanmışdır: 20.06.2017
Formatı: 60x84 1/8
Həcmi: 1 ç.v.
Sifariş 17
Tiraj: 500

*Təkrar çap zamanı ilk nəşrin kitab göstəriciləri olduğu kimi saxlanılmışdır*

Bakı-2017
"RENESSANS – A"

